# Ermənistana Qarabağdan göndərilən mesajlar

**Prezident İlham Əliyevin bölgələrə növbəti səfəri zamanı Tərtər Olimpiya İdman Kompleksinin açılışında səsləndirdiyi fikirlər bütün ictimaiyyət üçün nəticə çıxarılmalı mesajlardır. Bu fikirlərin məhz Qarabağdan səsləndirilməsi isə anlamaq istəməyən və ya anlamaq iqtidarında olmayan qarşı tərəfə xüsusi ismarıcdır. Bu barədə Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədri, siyasi elmlər doktoru Qənirə Paşayeva fikirlərini belə bildirdi:**



– Dövlətimizin başçısı rayonun bir qrup idmançısı qarşısında çıxışı zamanı qondarma Dağlıq Qarabağ xunta rejimində 31 martda keçirilən “prezident və parlament”, 14 apreldə keçirilən 2-ci tur “prezident seçkiləri” ilə bağlı olduqca vacib – proqram xarakterli məqamlara toxundu. Qondarma xunta rejiminin keçirdiyi saxta seçkiləri “şou və təlxəklər tamaşası” adlandıran, “məzhəkə oyunu” kimi dəyərləndirən Prezident İlham Əliyev “seçkilər”in və onun “nəticələr”inin tərəqqipərvər dünya birliyi, mötəbər beynəlxalq qurumlar tərəfindən tanınmadığını bildirdi. Avropa İttifaqı, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatının, digər aparıcı beynəlxalq təşkilatların bu seçkiləri qınadığını vurğulayan dövlətimizin başçısı bu məsələyə yalnız Avropa Şurasının münasibət bildirməməsinə diqqət çəkdi. Avropa Şurasının susmağının səbəbini assambleyanın əsas hədəflərindən biri kimi şərh edən ölkə başçısı bunun səbəbi “Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda “beşinci kolonu”, satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir” – dedi. Azərbaycanı tənqid eləmək üçün ən kiçik fürsətdən belə yararlanmağa çalışan AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak və Roger Qey saxta seçkilərlə bağlı səsini belə çıxarmadılar.

Q.Paşayeva diqqətə çatdırıb ki, Prezidentin faktoloji – adlar çəkib, ünvanlar göstərərək və hadisələrə obyektivliklə – münasibət sərgiləməsi siyasi, analitik, sosial təhlil mərkəzlərimizin, onların əməkdaşlıq etdiyi xarici tərəfdaşlarının müzakirələri, “beyin iflici” üçün əsaslar verir. Qondarma Dağlıq Qarabağ rejimində “prezident və parlament seçkiləri”, məhz qlobal pandemiyanın geniş yayıldığı bir zamanda keçirildi. Dünya koronavirus pandemiyasına qarşı ümumi mübarizə edərkən xunta rejimi və havadarının pandemiyaya qarşı gərəkli önləyici tədbirlər aparmaması diqqətdən kənarda qalmamalıdır.

Baş nazir Nikol Paşinyanın və ailəsinin koronavirusa yoluxması heç də təsadüfi deyildi. Bu da onu göstərir ki, işğalçılıq hərisliyi, cəzasızlıq və bəzi üzdəniraq qüvvələrə dəstək göstərilməsi xunta rejiminə əlavə güc verir və onları yalnız bölgəni deyil, bəşəri təhdid edən qanunsuz əməllərə, cinayətlərə sürükləyir. Qlobal pandemiya dövründə keçirilən “seçkilər” Qərb dövlətləri və AŞPA-da adekvat reaksiya vermədi, daha doğrusu, səslərini belə çıxarmadı. Deputat dedi:

– Prezident İlham Əliyev haqlı olaraq qeyd etdi ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, “Azərbaycanafobiya” hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində, məhz bu dayanır. “Azərbaycanafobiya” sözünün özü hər birimizə çağırışdır və bir proqram xarakteri daşıyır. Bizim bu gün nəyi necə edəcəyimiz, kimlərlə hansı məsafədə olacağımız, fəaliyyətdə səmimiliyimiz, vətənpərvərlik qətiyyətimiz ortaya qoyulmalıdır. Heç kəsə sirr deyil ki, son vaxtlar Avropa Şurası Parlament Assambleyası tamamilə nüfuzdan düşən bir quruma çevrilib, AŞPA məhz Azərbaycanın hesabına özünə reytinq yığmağa çalışır. AŞPA-nın 324 əsas üzvü olsa da, müzakirələr zamanı əksər hallarda ümumi sayın üçdə bir və ya daha aşağı hissəsi plenar iclaslarda iştirak edir. Prezidentin də vurğuladığı kimi, AŞPA və ATƏT-in Azərbaycana qarşı nifrətinin səbəblərindən biri də hazırda Qərbdə sürətlə vüsət alan islamofobiyadır. Əgər AŞPA azərbaycanlıları sevirsə və onların taleyinə biganə deyilsə, niyə o zaman indiyədək Ermənistan tərəfindən girovluqda saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevin pozulmuş hüquqlarının bərpası ilə bağlı, kiçik də olsa, bir fikir səsləndirmirlər. Axı, onlar da insandır və onların işgəncə altında saxlanıldığı da heç kimə sirr deyil.

Prezident İlham Əliyevin Tərtər Olimpiya İdman Kompleksinin açılışındakı çıxışı bu həqiqəti bir daha təsdiq etmiş oldu ki, erməni lobbisinin, islamofobların apardığı mütəşəkkil anti-Azərbaycan kampaniyası ilə ölkəmizi öz yolundan döndərmək mümkün olmayacaq. Çünki bizim öz yolumuz var. Özünəməxsus inkişaf yolu və strategiyası olan müstəqil Azərbaycan Respublikası dünyada artıq “ortamiqyaslı” ölkə kimi tanınır. Ölkəmiz bəşəriyyətə sülh və davamlı inkişaf bəxş edən dəyərləri təbliğ etməklə bərabər, beynəlxalq sistemin təhlükəsizliyi və sabitliyinə önəmli töhfələr verir, uğurlu regional enerji və infrastruktur layihələri ilə seçilir. Prezident Tərtərdə təkrarən Xalq Cümhuriyyətinin İrəvanın ermənilərə verilməsi haqqında 29 may 1918-ci il tarixli qərarına yenidən toxundu. İrəvanın verilməsi ilə ermənilərin Zəngəzura və Qarabağa iddialarından əl çəkəcəyi vədini xatırlatdı. İlk açılışını etdiyi yerin özü belə xüsusi mesaj idi: Dövlət Rəmzləri Muzeyi. Həmin muzeydə Sisyanın əsl adının Qarakilsə olması ilə bağlı icra başçısına tutulan iradın özü belə qarşı tərəfə ismarıc idi.

Səfər müddətində bütün görüşlər və bu tədbirlərdə səsləndirilən fikirlər vətəndaşımıza da, torpaqlarımızı işğal altında saxlayanlara da çox aydın və mühüm əhəmiyyətli ismarıclardır. Əgər dövlət ön cəbhəyə yaxın ərazidə müəssisələr açırsa, bu, ordumuzun qüdrətinə əminliyin ifadəsidir, gələcək planların bugünkü inikasıdır. Düşmənin qanunsuz məskunlaşma siyasəti, qanunsuz tikintiləri heç bir perspektiv vəd etmir. Ancaq biz doğma torpaqlarımızda dövlətimizin qüdrətinə və ordumuza güvənərək bu işləri görürük və görəcəyik. Guya, işğalçılar bunu başa düşmürlərmi? Guya, işğalçılar həqiqi statistikaya, ordularının psixoloji durumuna, təminatına, əsgərlərlə komplektləşdirmə problemlərinə bələd deyillərmi? Buna qarşılıq ortada iqtisadiyyatı, ordusu, vətənpərvər gəncliyi, haqq işə inanan əhalisi ilə Azərbaycan var. Biz, mütləq qalib gələcəyik. Bizim işimiz haqq işidir, bizdə dövlət-xalq birliyi mövcuddur və işğalçılardan fərqli olaraq, siyasi qibləmiz öz ölkəmizdədir, xərclərimizi özümüz qarşılayırıq. Ona görə də Prezidentin özünün də vurğuladığı kimi, işğalçılar da, o torpaqları öz güclərinə işğalda saxlamadıqlarını, tutduqları yanlış yoldan nə qədər tez çəkilsələr, bunun, məhz özlərinin xeyrinə olduğunu anlamalıdır. Yoxsa, Paşinyanın iki gündən bir əyninə hərbi səhra geyimi geyib Şuşaya, Xankəndinə gəlməsi ilə, oğlunu Qarabağa xidmətə göndərməsi ilə, torpaqlarımızı işğal altında saxlamaqla “demokrat qiyafəsi”ni də qorumağa çalışması, üstəlik, həyat yoldaşının da qeyri-səmimi sülh çağırışları etməsi həqiqətdən çox uzaqdır.

***Hazırladı:***
***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 10 iyun.- S.4.